

*Əli Rza XƏLƏFLİ*

Dağların, bağların bir gözəli var,
Yazam, əbədilik qala nanəni.
Çəmənlər içindən oğrun boylanar,
Deyərsən gizləyib qala nanəni.

Tökülər başına şabaş ləçəklər,
Məst olar qoxudan güllər, çiçəklər.
Seçkinlər içindən gələr gerçəklər,
Şah bilər özünə tala nanəni.

Yurdun hər qarışı göz üstə tutar,
Öpüb-oxşamağa üz üstə tutar;
Gözəl dad, xoş ətir... naz üstə tutar,
Qurudub səpəsən bala nanəni.

Ellər doğma bildi, boyunu sevdi,
Güllərin içində toyunu sevdi.
Nə ki, bənzəri var, soyunu sevdi
Çöllərin övladı - bala nanəni.

Mən Nanaya nanəni təşbeh tutdum... ad deyil,
Ariflərə bu təşbeh yalan deyil, yad deyil.

Gözəlləri sevməyin özü gülü sevməkdir,
Çəmən üstə nəğməli bir bülbülü sevməkdir.

Açılsın könüllərin sevgi dolu yolları,
Açılsın kindən uzaq məhəbbətin qolları.

Bilmirəm ki, hardadır, indi Nana dururmu?
Viranələr üstündə xəyal evi qururmu?

Axın-axın duyğular qəlbimdən gəlib keçir,
Tarixin istehzası sözümdən gülüb keçir.

Eşqindən yarımayan hər kəs mənə dərd daşı,
Aşiqlərin dərdini çəkə bilsən mərd daşı.

Məndən əvvəl sevgidən yazanlar unudulmaz,
Sevənlərin bəxtini yozanlar unudulmaz.

Səyyah adlı şair də ruhundan aram olsun,
Hər kim haqqı tapdasa, söz ona haram olsun.

...Əziz dostum İsaxan, qələmlə tək qalanda,
Qəlbimlə danışıram duyğulara dolanda.

Mən ölməyən sevginin dastanını yazıram,
Sanasan ki, Sədinin «Büstan»ını yazıram.

Sözü bələdçi bilib yeridikcə dərinə,
Canlanır gözlərimdə ötən zaman, qərinə.

Hələ yaddan çıxmayıb neçə qanlar, qadalar,
Hələ canda diridir, qəzəb, hikkə, ədalar.

Hələ yara təzədir, göynəmlər səngiməyib,
Necə deyim nəfəslər yanmayıb, təngiməyib.

Tarixə yanaşmağın çox yolu var, bilirsən,
Doğru yola, düz yola yazı-yazı gəlirsən.

Taleyin qismətidir haylara qonşu olmaq,
Pis qonşunun əlindən sağalmaz yara almaq.

Söhbəti çox uzatsam soyuq külək əsməzmi,
Məramdan uzaq düşsəm İlqar bizdən küsməzmi?

Əziz dostum İsaxan, qayıdıram o yerə,
İlqar necə yol gedir bir dumanlı şəhərə.

...Mart ayının səkkizi - çərşənbə axşamıydı,
Tonqallar sevənlərin qəlbində ağ şamıydı.

İlqarın gözlərində dünya nura dönmüşdü,
Ürəyində sevgisi oda, qora dönmüşdü.

Qəti qərar vermişdi sabah özü gedəcək,
Sevgisini birbaşa açıq bəyan edəcək.

Beləcə iztirabla gecə keçdi, gün gəldi,
İlqarın varlığına sanki göydən ün gəldi.

Hələ ötən gün özü Nanaya da demişdi,
Bir qərara gəlincə neçə qəmlər yemişdi.

Nana razı olmamış «hələ gəlmə» deyərək,
«Hələ tezdi sevinmə, belə gülmə» deyərək...

Amma İlqar inadla «gələrəm» söyləmişdi,
Hökmünü qətiyyətlə sərt bəyan eyləmişdi.

Günortaya az qalmış göy üzü tutqun idi,
Buludlarda gizlənmiş günəş də susqun idi.

Təbiət nə deyirdi İlqarın inadına
Yerlər, göylər susurdu aşiqin fəryadına.

Budur, İlqar gəlmişdi əlində bir dəstə gül,
Qələmimə deyirəm; sən də sevin, sən də gül.

Qapını həyəcanla İlqar döydü, gözlədi,
İntizarlı anlarda ürəyini közlədi.

Budur, qapı açıldı - Nananın anasıydı,
Soyuq, səssiz baxışlar... istəklər yanasıydı.

Sveta Mixaylovna səssiz baxdı İlqara,
Sonra da döndü sanki, üzü soyuq divara.

# V. ODLA SUYUN ARASINDA

## *“Ölməyən sevginin dastanı” əsərindən parçalar*

Bilənlər adını neçə cür sayar,
Yarpızdı, nanədi... söyləyib öyər,
Təbiblər dərmana əvəzdi deyər
Xeyiri başına bələ nanəni.

Gözəlin bəxtinə dərilmək yazı,
Xələfli dilindən bu da bir yazı.
Üzünə xoş gəlsə, baharı, yazı
Bürüyər yaşıla, ala nanəni.

Səyyah vəsf elədi laladən belə,
Xalları, gülləri haladən belə.
Qafiyə gətirib nalədən belə
Əli Rza da çəkdi ala nanəni.

Nanəni vəsf eləmək hardan gəldi, bilmirəm,
Bəlkə də Nana adı üzə güldü, bilmirəm.

Səyyah adlı bir şair bəzəmişdi laləni,
Ürəyinə xal salan bir yanıqlı naləni.

Səyyahın ruhu dindi, nə durmusan, sənətkar,
Salam de, gül-çiçəyə, qoy sevinsin ilk bahar.

Yazına ətir saçsın çəmən üstə nanələr,
Qönçələnsin fikirlər, sözə dönsün xanələr.

Gözlərimin önünə canlandı, Nana gəldi,
Soluxmuş, solmuş bir gül dərdi bəyana gəldi.

Nananın simasında nanəni gördü gözüm,
Heç məni gözləmədi, ona üz tutdu sözüm.

Nanəni sözə çəkdim, duyğularım dilləndi,
Misralar ətir-ətir, çiçək-çiçək güllləndi.

Bəxtsiz-kamsız taleyin, təskini nanəm olsun,
Bu dastanın qəm evi İlqarlı Nanam olsun.

İnsani duyğulara səd çəkənlər dərs alsın,
Tarixin cəzasını şillə bilsin, tərs alsın.

Aşiqlərin dərdini ha yazasan qəm bitməz,
Bəxti üzə gülənin kamında da dəm bitməz.

Yenə ümid edirik, insanlıq ölməyəcək,
Yenə ümid edirik, iblislik gülməyəcək.

Ona görə yazmırıq yaddaş itsin, pozulsun,
Yazırıq ki, həqiqət doğru, düzgün yozulsun.

Məhəbbət nəğməsidir sənin «Sevgi dastanı»n,
İnsanlığa çağırır bülbülün, gülüstanın.

Bilirəm, çoxlarına yoxuş gəlir sözümüz,
Kim biləcək nə deyir ocağımız, közümüz.

Səni bələdçi bildim bu dastanı yazmağa,
Arif olan can atar mənaları yozmağa.

Doğrusu, istəyirəm düşmənçilik yox olsun,
Qan-qan deyən kəslərdən barış uman çox olsun.

Yuxu-yuxu getməyək sabaha sözümüzlə,
Qan-qada aparmayaq bir daha özümüzlə.

Yazdığımız hər nə var, ümid versin insana,
Çıxış yolu göstərsin hər çətinə, asana.

Əziz dostum İsaxan, elminə güvəncim var,
İşığınla nurlanan sözüm səni salamlar.

Müəllimsən - bu adın şərəfli vaxtındasan,
Qəlbimdə çıraq yanır, ucalıq taxtındasan.

Yazıçısan, şairsən, söz üstündə sözün var,
Söz üstündə ucalar ən möhtəşəm saraylar.

Ruhu sənə dayaqdır Fərhad Ağazadənin,
Sözündə açarı var mürəkkəbin, sadənin.

Yeseninlə güllənib solmayan söz gülşənin,
Sevginlə aram olub yanğısı hər təşnənin.

Poetik tərcümələr ruhunun öz səsidir,
Çiçək-çiçək duyğular bir şair nəfəsidir.

Sergey deyəsən səni... sözünü bitirməmiş,
Nana çıxdı otaqdan... özünü itirməmiş.

Təbiət də belədir, qəfil küləklər əsir,
Əsən qəfil küləklər yol kəsir, dilək kəsir.

Bir az qəzəb, acıqla baxdı İlqara Nana,
Heç gülü də almadı... bu özü də bir yana.

Dönüb qayıtdı geri... İlqara dağ çəkildi,
Onun sevən qəlbinə neçə qəmlər əkildi.

Sergey gəldi yaxına, evə dəvət eylədi,
Hörmət-izzət göstərib asta-asta söylədi.

Cavan oğlan, bilirəm, nədən ötrü gəlmisən;
Sevginə ümidinlə sevinmisən, gülmüsən.

Sən türksən, müsəlmansan, biz erməni xaçpərəst,
Sevgi özü bir dindir, sevənlər də ac pərəst.

Amma çətin ki, sizin yollarınız qovuşa,
Çətin ki, min bir xəta sizdən ötə, sovuşa.

Məsləhətim budur ki, bu gündən ayrılın siz,
Bəlkə onda qayıdıb düz yola gələsiniz.

İlqar da bu cavabdan itirmədi özünü,
Yansa da, qaralsa da saxlamadı sözünü.

Hörmətlə yanaşıram, sözünüzə əlbəttə,
Etiraz eləmərəm düzünüzə, əlbəttə.

Siz bizə xeyir-dua versəniz sevinərik,
Qəlbimizin gülünü dərsəniz sevinərik.

Həyat sevgi bağıdır, sevənlər də gülləri
Bu gülləri yolmasın qəzəb, qərəz əlləri.

*(Davamı 9-cu səhifədə)*

# V. ODLA SUYUN ARASINDA

## "Ölməyən sevginin dastanı" əsərindən parçalar

*(Əvvəli 8-ci səhifədə)*

Məncə sizə aydındır, sevgi dindən ucadır,
Sevgi hər vaxt cavandır, dünya özü qocadır.

Yol verin biz də gedək sevgili dünyamıza,
Dünyamızdan boylanaq məhəbbət aynamıza.

Sergey qəzəblə susdu - fikrə getdi bir anlıq,
Daş qayaya rast gəlib... yox o yanlıq, bu yanlıq.

Çağırdı Nanasını - bir buraya gəl görüm,
Gəl, özün bir cavab ver, ağla görüm, gül görüm.

Bu zaman anası da dayanmışdı arxada,
Üzü sonsuz kədərə boyanmışdı arxada.

Sergeyin qətiyyətli hökmü səsləndi birdən
Ya bizi seç uzaq ol, gələn qəza-qədərdən.

Ya da bu türk oğlunun tut əlindən çıx evdən,
Bil ki, atan deyiləm, sən gözünü yığ evdən.

Devikmiş gözləriylə Nana baxdı ataya,
Şimşək-şimşək baxışı qəzəb çaxdı ataya.

Daha bir söz demədi, dönüb çıxdı otaqdan,
Deyəsən İlqar üçün bülbül uçdu budaqdan.

Burda İlqar sarsıldı, Nana seçmədi onu,
İlqarın yanan qəlbi gözləmirdi bu sonu.

Nananın sevgisində inadı qırılmışdı,
Dağılmışdı sarayı, qalası yarılmışdı.

İlqarın varlığından soyuq külək əsirdi,
Soyuğun sərt sızağı inadını kəsirdi.

Bir soyuq «sağ olun»la İlqar çıxdı bayıra,
Bəlkə, onu soyuqdan yaz günəşi ayıra.

Belə qəddar dünyanın təhəri bu, yönü bu,
Sevgili arzuların axırı bu, sonu bu.

İstəklər öz-özünə, dostum, solmur dünyada,
Sevənlərin yolu da hamar olmur dünyada.

Hansımızın sevgisi tikanlardan keçməyib,
Dünyada varmı bir kəs acı şərbət içməyib.

Yaxın, uzaq yollarda nələr çəkib başımız,
Yolumuzu kəsənə ağır olub daşımız.

Döymüşük qapıları min həyəcan içində,
Qovrulub istəyimiz, can yanıb can içində.

Taledən acıları çəkmişik qanımıza,
Dünyanın ağrıları dərd verib canımıza.

...Aşiq oğlan tək gəzir, ünsiyyətdən qaçırdı,
Çəkdiyini səssizcə öz qəlbinə açırdı.

Danışırdı ürəyi qəfəsdə çırpınaraq,
Yanırdı iztirabdan nəfəsdə çarpınaraq.

Nərminənin, Vüqarın əndişəsi təhərsiz,
Bir ay olar İlqarın günü keçmir qəhərsiz.

Axı nə var, nə olub, bu susmağın adı nə,
İlqara fərq eləmir doğması nə, yadı nə...

Vüqar böyük qardaşdır, məsuliyyət daşıyır,
Nərminə bacı kimi qayğısını yaşıyır.

Bir az da gözləməyi Vüqar məsləhət bildi,
Yersiz öyüd, nəsihət... bunu qəbahət bildi.

Həyatda çox müşkülün sirrini gümandan sor,
Doğru-düzgün cavabı vaxtında zamandan sor.

Vüqar böyük alimdir, təmkininə əl çatmaz,
Sözünə, məntiqinə hələm-hələm dil qatmaz.

Darıxma sən Nərminə, İlqar özü dillənər,
Sakitcə dedi Vüqar - nə baş verib bəllənər.

Səbir ilə açılar həyatda çox qapılar,
Çox sirlərin cavabı təmkin ilə tapılar.

Nərminə də yanğıyla sözünü dilə çəkdi,
Ana-bacı qayğısı... bu da belə gerçəkdi.

Görürsən ki, İlqarı... gündən-günə əriyir,
Kimsəyə bir söz demir, necə susur, kiriyir.

Yaxşı, yenə gözləyək, amma belə çox getməz,
Yol tapsa bir ürəyə ağır kədər qəm bitməz.

Axır ki, gözləməyi üstün bildi doğmalar,
Doğmalarsız qəm-kədər ürəkləri yağmalar.

Vüqarlarsız bu dünya qaranlığa yönələr,
Qoruyurlar həyatda işığı Nərminələr.

...İztirablar içində yaşanan günlər ötmür,
Göy üzündən varlığa süzülən ünlər ötmür.

Hara getsən səninlə bir xəyal da yol gedir,
Xəyalın üfüqündən açılan bir qol gedir.

Əziz dostum İsaxan, görmüşük yananları,
Görmüşük od içində qəlbindən donanları.

İlqarı kim qınayar, tapılarmı bələsi,
Kərəmi tək qoyarmı Ərzurumda lələsi.

Bir dastanın ağrısı bu yerdə məndən keçir,
Dəhnədən su kəsilsə, dəyirman dəndən keçir.

Məndən ötrü İlqar da gədik üstə qardadır,
Bəlkə də son ümidə ürək üzür, dardadır.

Qəlbinin tellərində yanır «Yanıq Kərəmi»
Yanan eşqə hay verən dağmı, daşmı, dərəmi?

Dolaşır küçələri başsız küləklər ilə,
Yanmış ümid içindən gülən diləklər ilə.

Yenə evə qayıdır əhvalı kefsiz-halsız,
Bu cahanda bir aşiq olubmu qeylü-qalsız.

Birdən ayaq saxladı, döndü üzü geriyə,
Çağırdı son ümidi, bəlkə, gedə, yeriyə.

Neçə günün həsrəti... qəlbində yanğısı var,
Bəlkə görə Nananı təskinlik tapa İlqar.

Onu oda tutmuşdu eşqin yanan atəşi,
Qaranlığa düşənlər arzulayar günəşi.

Oxucumun yadında qalmış olar tək çinar,
Həmtayını itirən leyləklər hara qonar?..

Ümidlə gəldi İlqar, bəlkə, Nana görünər,
Görünməsə İlqarın qəlbi qəmə bürünər.

Bu yerdə sevgiləri körpü gördüm gözümdə,
İnsanlığa sevgim də qoy güllənsin sözümdə.

Yaxın-uzaq dünyanı qovuşdurar körpülər,
Həsrətlər qovuşmağa körpülərə yol gələr.

Pəncərədə tül pərdə, düşüncə gəlmir sözə,
Nana mələk donunda hərdən görünür gözə.

Tutqun işıq içində İlqarın gözəl gülü,
Uçub qonur eyvana onun xəyal bülbülü.

Xəyallara nə var ki, uçub qonar budağa,
Sevdiyini bir anda alıb qaçar uzağa.

Fikir, xəyal İlqarı çəkdi gözəl günlərə,
Qəlbindən səda gəldi, qulaq tutdu ünlərə.

Danışan qəlbi idi, özü səssiz baxırdı,
Qəlbindən gələn səsi onu oda yaxırdı.

Min oda, min atəşə yansam da usanmaram,
Sən mənim özümdəsən, varlığımdan danmaram.

Hər damla qanımdasan, mən sənə can deyirəm,
Qəmə dönüb çağlayan qana can-can deyirəm.

Kəsilsə başım mənim bir bədəndir, qəm yemə,
Mən sənin ruhundayam, sən mənə «öldü» demə.

Düşünmə ki, ayrıldıq, hara dönsəm sən varsan,
Yaxşı baxsan deyərsən gördüm, sən də İlqarsan.

Əzəl məndən soruşan olmayıb sevgi nədir;
Deyərəm hər nədirsə, ürəkləri göynədir.

Gözlərimi yumuram, yuxu boyu məndəsən
Bulaq üstə gözümdə, bir yaşıl çəməndəsən.

Keçdiyimiz yolları bilməzdim duman alar,
Deyirdim həyatımız bir ümid, güman olar.

Qanad al xəyalından, uç gəl, mənim yanıma,
Dolasan nəfəsimə, dönəsən həyatıma.

Düşüncələr içində çırpınırdı ürəyi,
Xəyalını dağıtdı əsən bahar küləyi.

Qəti bir qərar ilə qalxdı İlqar yerindən,
Üzü küləyə doğru nəfəs aldı dərindən.

Sabah gərək Nananı tapım harda olsa da,
Ümidsizlik içində saralsa da, solsa da.

Danışarıq bir yerdə, bəlkə, bir yol taparıq,
Bəlkə, bəxtin əlindən son qisməti qaparıq.

Bir yerdə biz gedərik üzü acı küləyə,
Bəxtimizi vermərik bir hiyləyə, kələyə.

Yəqin Nana üçün də çətin olub bu günlər,
Bəlkə, hələ sınmayıb mətin olub bu günlər.

Xatirələr içində yuxusundan oyandı,
Şirin xəyallar ilə qəlbi nura boyandı.

...Təzə günün planı beynində qurulmuşdu,
Fikirlər, düşüncələr şübhədən durulmuşdu.

Xəyalına gətirdi sevdalı çağlarını,
Nana ilə gəzdiyi məhəbbət bağlarını.

Harda qaldı o günlər, quş kimi uçub getdi,
Həsrət düşdü araya, vüsal da qaçıb getdi.

Xatirələr yaddaşda yaşadıqca şirindir,
Duyğular acıları danışdıqca şirindir.

Ötən yayı Nanagil Rusiyaya getmişdi,
Düşünməsin oxucum, sevgi burda bitmişdi.

Elə İlqar özü də kəndə getdi həmin yay,
Aparmışdı qəlbində məhəbbətdən bir saray.

O sarayın içində eşqinin təntənəsi,
Nanadır şahzadəsi - qəlbinin bir tanəsi.

Nanaya tapşırmışdı hər gün məktub yazarsan,
Hər məktubda sevgini özün bir cür yozarsan.

Yadından çıxmayıb heç, sevgi dolu məktublar,
Ona qucaq açırdı həyat yolu məktublar.

Poçtalyona verdiyi şirinlik də xatirə,
O günləri bir daha kim qaytara, gətirə.

Hər məktuba cavabı qəlbindən pay olurdu,
Hərdən kağız üstündə kövrəlirdi, dolurdu.

Hələ son məktubunda unudarmı nə yazdı?
Yazdığı hər sözündə dünya ona bəyazdı.

*(Davamı 14-cü səhifədə)*

*(Əvvəli 9-cu səhifədə)*

Dostunun bir şeiri ürəyindən ün dərdi,
Nanaya o şeiri cavab üçün göndərdi.

Şeirin hər misrası qəlbinin öz səsiydi,
Məhəbbət nəğməsiydi, eşqinin yaz səsiydi.

İndi həmin şeiri ürəyində oxuyur,
Xəyalında eşqinin xalısını toxuyur.

Qoy oxucum özü də oxusun misraları,
Bəlkə onda anlaya bizim dərdli İlqarı.

Əzizim, boylanıram günəşə ürəyimlə,
Can atır duyğularım qəlbinə istəyimlə.

Buludlar göy üzündə gizləsə də günəşi,
Mənim yanan qəlbimin sən özünsən atəşi.

İşığım səndən gəlir - mən də yerin özüyəm,
Eşqə yanan qəlbimin atəşiyəm, közüyəm.

Gəl səninlə bir uçaq yer üstü, səma boyu,
Göy üzündə çalınsın bu eşqin vüsal toyu.

Toyumuzun hamisi Allahın özü olsun,
Həsrətin, ayrılığın bənizi, üzü olsun.

Qəlbimizdə gül açsın Kərəmin kamsız ahı,
Əslidən ötüb keçsin düymələrin günahı.

İnsanlığa qənimlər - kinlər, qərəzlər yansın,
Müqəddəs sevgilərin üzü nura boyansın.

Yanmasın atəşlərə bundan sonra ürəklər,
Çiçək açsın, güllənsin sevgi dolu diləklər.

Gülya gəldi bu zaman - Nananın rəfiqəsi,
Çox sınaqdan çıxmışdı dostluğu, əqidəsi.

O, səmimi görüşdü, İlqarı öpdü də bir,
Bilirəm nə çəkirsən, bizdən nə kömək, tədbir?..

Nə desin, nə söyləsin - çiynini çəkdi İlqar.
Kim nəyi düşünürsə, Allahın xəbəri var.

Gülya güldü, dilləndi, yaxşı olar, qəm yemə.
Sənə bir xəbər deyim, bir kimsəyə söyləmə.

İlqar maraqla baxdı, nə deyəcək görəsən,
Gülya dedi, qəlbində çiçək bitsin, dərəsən.

Nananın anasının sənə xəlvət sözü var,
Nə desə, sən razı ol, hər bir sözün düzü var.

Sveta müəllimdir, məktəb də uzaq deyil,
Təbiət də gözəldi, qar deyil, sazaq deyil.

Haydı, indi yaxşı yol, bəlkə, qapı açıldı,
İlqarın ürəyinə bir işıq da saçıldı.

Amma onun qəlbini şübhə, kədər yeyirdi,
Həyat mənə yağıdı - düşüncəsi deyirdi.

Kədərini, qəmini aparırdı bu təbdə,
Nananın anasını İlqar tapdı məktəbdə.

Qayğılı görünürdü Sveta xanım özü
Xeyli susdu, dayandı - hardan başlasın sözü.

Gənc oğlanın ürəyi çırpınırdı sinədə,
Ümidinə güvənib gözləyirdi yenə də.

Axır ki, Svetlana qətiyyətlə dilləndi,
Təbəssümlə dilləndi, üzü-gözü gülləndi.

Sevgi dolu misralar ürəklərə nur saçar,
Odu sönmüş ocaqlar ocağından qor alar.

İlqarın da qəlbinə bəlkə, təskinlik oldu,
Güldü könül havası, qəmi, kədəri soldu.

Söz gülsə, saz güllənsə həyatdan küsməz İlqar,
Həyat gözəldir, dostum, bundan üstün de, nə var?!

Eşqə düşən ürəyimin yanğısını köz bəzədi,
İlhamıma qanad verdi, xumar-xumar göz bəzədi,
Aşıq gəldi, meydan güldü, dastanımı söz bəzədi.
«Təzə bir yaraşıq verdi, məclisimi saz bəzədi,
Şirin xallar cilvələndi, sazı bir avaz bəzədi».

Əsli-Kərəm yanğısından qor gətirdi əsən yellər,
Mənə sevgi nəğməsini oxuduqca şirin dillər,
Xəyalımda diləklənər ağ biləklər, nazik əllər,
«Sarıtel»in qanadında cilvələndi qara tellər,
Oğulları sevgi fəsli, gözəlləri naz bəzədi».

Hər kəs çəkər əsilinə, axtar-ara, soyla sına,
Sadiq olar əsil olan solub getməz, toyla sına.
Qamaşmaz ki, İlahi nur, günəşə tut, ayla sına,
«Duyan könül, sevən ürək yandı səsin laylasına,
Vaxtın bircə gecəsini neçə sərvinaz bəzədi».

Göy üzündə günəş güldü, buz sındırdı ayna göllər,
Görkəzmədi çəmən-çəmən bəzənibdi gəlin çöllər,
Novruz üstə qönçələndi bənövşələr, qızıl güllər.
«Qar əridi yer altından baş qaldırdı qərənfillər,
Ömrü qışın arxasınca açıb gələn yaz bəzədi».

Doğru dillər yalanları uca bilməz həqiqətdən,
Haqq yolunda var olanlar barınarlar şərafətdən.
Halallıqla gələn ruzum dad gətirər ləyaqətdən;
«Dönüb bərəkətə yerim, maya tutdu məhəbbətdən,
Əkən əkdi, biçən biçdi, sünbülü dəryaz bəzədi».

# V. ODLA SUYUN ARASINDA

## *"Ölməyən sevginin dastanı" əsərindən parçalar*

Sətir-sətir hər sözüm gülə dönsün açılsın,
Sevənlərin qəlbinə günəş nuru saçılsın.

Aşiqlərin eşqidir bu gül üzlü misralar,
Sevənlərə pay olsun odlu, közlü misralar.

Qəlbimin atəşini yazdım, dilə gətirdim,
Xələflinin adından sözü belə bitirdim.

İnamla gedirdi o, həmin görüş yerinə,
Doqquzun yarısıydı... çatdı öz səhərinə.

«Neftçilər» metrosunun yanında gözləyirdi,
Həsrəti, ayrılığı canında gözləyirdi.

Danışmaq istəmişdi axı axşam özü də,
Nərminə demişdi ki, kövrək idi sözü də.

Əlbəttə, əhvalatı qardaşı da bilmirdi,
Nərminənin ağlına başqa heç nə gəlmirdi.

Gözlədi həyəcanla, ancaq Nana gəlmədi,
Qəlbinin harayına bir həyana gəlmədi.

Ümidsizlik, iztirab sıxmadaydı İlqarı,
Axı hara aparır onu həyat qatarı.

Universitet özü bizdə təhsil yeriydi,
Gənclər üçün həyatın dan üzü, səhəriydi.

Bu qapıdan başlanır böyük yolun əvvəli,
Gənclərə gəl-gəl deyən açıq qolun əvvəli.

Nana yox idi dərsdə tapmadı İlqar onu,
Çalışdı təmkin ilə gözləsin hələ sonu.

Cəsarətin lazımdır, götür qızı, qaçır sən,
Sizdə vardır bu adət, çətinlikdən keçərsən.

Vaxt ötsün, zaman keçsin, mən sizi qoruyaram,
Harda olsanız bilin, taparam, arayaram.

Sergey də bağışlayar, hər iş düşər qaydaya,
Keçər onun qəzəbi, baxmayın siz ədaya.

Sözüm bu, məsləhətim budur - indi gedin siz,
Nə lazım durmaq daha, bir hərəkət edin siz.

Sveta Mixaylovna çıxıb getdi işinə,
İlqar məəttəl idi, taleyin gərdişinə.

Axı onun qəlbində arzuları var idi,
Onda ki, xoşbəxt idi, qəlbində bahar idi.

Toy olar təm-taraqla, ağ donlu gəlin gələr,
Anasının istəyi gül açar, gözü gülər.

Yox, bu yolu seçmərəm, lap dünya dağılsa da,
Qəlbimdə məhəbbətim talana yazılsa da.

Kədər onu boğurdu, çıxış yolu hardaydı,
İlqarın sevən qəlbi bax, beləcə dardaydı.

Gəldi evə əzilmiş, ümidləri qırılmış,
Uçmuş könül sarayı, bəxt hasarı yarılmış.

Həyat onun gözündə heçə dönmüş, yox olmuş,
Fələyin acıları ürəyinə ox olmuş...

Dastanın bu yerində Zəlimxan yada düşür,
Özü nikbin şairin sözləri oda düşür.

Hünər gərək qaçan bəxtə çatıb, yetib saxlamağa,
Tanrı payı arzuları yolda ötüb saxlamağa,
Dünya ilə oyun qurub, onu udub saxlamağa,
«Gücü çatar bircə saat vaxtı tutub saxlamağa,
Naxış vuran, bəzək verən ruhumuzu az bəzədi».

Nağıl-nağıl almaların göy üzündən üçü gəldi,
Xələfliyə pay əvəzi bir iynənin ucu gəldi.
Mənə qalan söz yüküdü, duyğuların köçü gəldi,
«Zəlimxanın qollarına yeddi nərin gücü gəldi
Koroğlunun meydanını sanki Xan Eyvaz bəzədi».

Su gələ hovur-hovur,
Yer içə hovur-hovur...
Biz də keçək həsrətdən,
Qovuşaq hovur-hovur.

Əcəm ol, İraq ol sən,
Əlyetməz, İraq ol sən...
Gir qəlbimin içinə,
Pis gözdən İraq ol sən...

Gəlməsən günüm batar,
Toyum, düyünüm batar...
Sənin səsin gəlməsə,
Mənim də ünüm batar...

